# "Azərkosmos" BMT-nin "Qlobal Saziş" təşəbbüsündən yararlanacaq

**Xəbər verildiyi kimi, "Azərkosmos" Birləşmiş Millətlər Təşkilatının (BMT) Azərbaycandakı Ofisi ilə BMT-nin "Qlobal Saziş" təşəbbüsünə qoşulmasına dair əməkdaşlıq sənədi imzalayıb.**

"Azərkosmos" "Qlobal Saziş"ə qoşulmaqla kosmik fəaliyyət sahəsində davamlılığı planlaşdırmaq, həyata keçirmək, daxili imkanlarını gücləndirmək və beynəlxalq miqyasda daha geniş biznes ictimaiyyəti və digər maraqlı tərəflərlə öz təcrübəsini bölüşmək imkanı əldə edəcək. Həmçinin "Azərkosmos" ilə BMT arasında təcrübə mübadiləsinin aparılması, "Azərkosmos"un "Qlobal iqlim dəyişikliklərinin Azərbaycan Respublikasına təsirlərinin qiymətləndirilməsi üzrə hesabatı"na dair müzakirələr nəzərdə tutulur.

Qeyd edək ki, BMT-nin təşəbbüsü ilə 2000-ci ildə əsası qoyulmuş "Qlobal Saziş" 160-dan çox ölkədə 20 mindən artıq biznes və qeyri-biznes tərəfdaşlarını bir araya gətirən dünyanın ən böyük korporativ dayanıqlılıq şəbəkəsidir. O həm də 130 ölkəni əhatə edən 6000 biznes iştirakçısını və digər




maraqlı şəxsləri özündə cəmləşdirən geniş korporativ vətəndaş təşəbbüsüdür.

"Qlobal Saziş" üzvlərinin əsas məqsədi öz strategiya və fəaliyyətlərini beynəlxalq səviyyədə qəbul edilmiş insan haqları, işçi hüquqları, ətraf mühitin qorunması ilə bağlı prinsiplərə və "Dayanıqlı inkişaf üzrə 2030 Gündəliyi"nə uyğunlaşdırmaqdır. Birləşmiş Millətlər Təşkilatının "Qlobal Saziş"i millətlərlə işləməyə, dünya üzrə müəssisələr və özlərinin təşkilatları ilə təcrübələri bölüşməyə, həmkarlar ittifaqları və digər qruplar ilə danışıqlar aparmağa imkan yaradır. O, şirkətlərdən tələb edir ki, uzun müddət beynəlxalq səviyyədə qanuni müqavilə və bəyannamələrdə universal kimi qəbul edilən on prinsipi gündəlik təcrübələrinə daxil etsinlər və öz təsir dairələrində onun təbliğatını həyata keçirsinlər. Birləşmiş Millətlər Təşkilatının "Qlobal Saziş"ini dəstəkləməklə iştirakçılar dörd sahədə (insan hüquqları, əmək normaları, ətraf mühitin qorunması və korrupsiyaya qarşı mübarizə) müəssisə təcrübələrini inkişaf etdirməyə istiqamətlənən şirkətlər şəbəkəsinin bir hissəsi olmağı seçir ki, bu da qloballaşmanın daha ədalətli olmasına kömək edir.

"Qlobal Saziş"in 4 əmək prinsipi var: assosiasiya və kollektiv danışıqlar hüququnun səmərəli tanınması, məcburi və icbari əməyin bütün formalarının, uşaq əməyinin, məşğulluqda və peşə üzrə hər bir növ diskriminasiyanın aradan qaldırılması. Məhz bu prinsiplər Beynəlxalq Əmək Təşkilatının şirkətlərlə birbaşa işləmək təcrübəsini inkişaf etdirir.

Birləşmiş Millətlər Təşkilatının "Qlobal Saziş" Şəbəkəsinin əmək prinsipləri Beynəlxalq Əmək Təşkilatının 10 prinsipi arasında olsa da, onların tətbiqi heç də asan deyil. Bir çox şirkətlər onlardan nə tələb olunduğunu və bu prinsipləri müdafiə etmək üçün daha nələr edə biləcəklərini bilməkdə çətinliklərlə üzləşirlər. Belə ki, əmək təcrübələrində məqsədi olan yanaşmaları tamamlamaq vasitəsi kimi əməkdaşlıq da daxil olmaqla, geniş öyrənmə, dialoq və birgə fəaliyyət sahəsi var.

Bütün bunların fonunda "Azərkosmos" BMT-nin "Qlobal Saziş"inin iştirakçısı olaraq öz fəaliyyətini 2021-2025-ci illəri əhatə edən "Dayanıqlı İnkişaf üzrə Əməkdaşlıq Çərçivəsi" də daxil olmaqla, ölkənin davamlı inkişaf prioritetlərinə, "yaşıl" inkişaf istiqamətlərinə, siyasətlərinə və öhdəliklərinə uyğunlaşdıracaq. "Azərkosmos", o cümlədən davamlı inkişafla bağlı 17 hədəf üzrə BMT-nin təcrübəsindən yararlanacaq.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2023.- 19 noyabr, № 252.- S.11.